BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2009*

# BEYNƏLXALQ MİQRASİYANIN YARANMA ƏSASLARI VƏ İNKİŞAF TARİXİ

**C.A.NİYAZOV**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***niyazov ca 1@rambler.ru***

Sivilizasiyanın inkişafının obyektiv reallığı ilə meydana gəlmiş sosial fenomen kimi miqrasiya ayrı-ayrı dövrlərdə fərqli təbiətə malik olmasına baxmayaraq, bəşəriyyəti bütün tarix boyu müşayiət etmişdir.

Ümumiyyətlə, bəşəriyyətin bütün tarixini qəbilə və xalqların fasiləsiz miqrasiyası nöqteyi-nəzərindən xarakterizə etmək olar. Əgər tarixin bir dövründə miqrasiya çox da əhəmiyyətli olmayan bir məsələ idisə, artıq sonrakı dövrlərdə sivilizasiyanın inkişaf amilinə çevrilmişdi. Miqrasiyanın tarixi təhlili iki tip miqrasiya axınının olmasını fərqləndirməyə imkan verir (3, 64). Bir tərəfdən, miqrasiya həmişə davamlı struktura malik və kompleks sosial münasibətlər əsasında yaranan sosial sistemlərin xarici ekspansiyasının nəticəsi olmuşdur. Bu tip miqrasiyanın miqyasları əsrlər ərzində getdikcə daha da artmışdır: Misirin Ön Asiyaya ekspansiyası; Assuriyadan, sonradan isə İrandan Finikiyaya, Qafqaza, Kiçik Asiyaya, Yunanıstana miqrasiya; ellinlərin və makedonların Asiyaya və Şimali Afrikaya cavab axını; Roma imperiyasının yaranması və latınların onun periferik rayonlarına irimiqyaslı miqrasiyası; Fransanın cənubuna qədər gəlmiş ərəb ordularının axını; nəhayət, XV-XVI əsrlərdən etibarən başlayan Amerikanın, Avstraliyanın və Asiyanın ayrı-ayrı rayonlarının avropalılar tərəfindən koloniyalaşdırılması.

Digər tərəfdən, miqrasiya tez-tez sosial strukturu və siyasi sistemi formalaşma mərhələsində olan köçəri qəbilələr və xalqlarda xaotik təkamülə səbəb olurdu. Daha təkmil siyasi quruluşların inkişafı ilə bu tip miqrasiya axınlarının əhəmiyyəti tədricən aşağı düşdü: əgər qədim dünyada Misirin hiksoslar tərəfindən işğalı və ya Hindistan yarımadasında dəfələrlə baş vermiş miqrasiya dalğaları və digər bu kimi amillər bu tipin xarakterik axınlarına aiddir. Miqrasiya problemi yeni deyildir. Bu problem bəşər sivilizasiyası tarixində ilk dövlətlərin meydana gəlməsindən etibarən mövcud olmuşdur. Lakin ayrı-ayrı tarixi dövrlərdə bu problem müxtəlif cür həll olunurdu. Üçüncü minilliyin əvvəlində bəşəriyyət növbəti dəfə ictimai stereotiplərin böhranı ilə xarakterizə olunan keşməkeşli tarixi dəyişikliklərlə üzləşir. Cəmiyyətin qlobal informatizasiyası və kompüterləşdirilməsi ilə sürətli elmi texniki tərəqqi, ikiqütblü dünyanın ləğvi və beynəlxalq əhəmiyyətli maraq və dəyərlərin meydana gəlməsi ilə hərbi və geosiyasi xarakterli radikal dəyişikliklərin baş verməsi, daha tez-tez hərbi yolla həll olunan iqtisadi milli və dini qarşıdurmalar, təbii və texnogen fəlakətlər beynəlxalq birliyin sonrakı həyatı haqqında məsələyə yeni yanaşma tələb edir. Son onilliklərdə dünyanın

inкişafına xas olan şərait gərginliyi öz növbəsində bir sıra müvafiq halların, o cümlədən get-gedə daha böyüк əhəmiyyət кəsb edən əhali miqrasiyasının fəallaşmasını stimullaşdırır.

Bəzi tədqiqatçılar isə miqrasiyanın yaranma tarixini bəşəriyyətin ilкin dövrlərinə aid edirlər. Belə кi, N.Y.Merpert miqrasiyanın neolit və eneolit dövründə, V.S.Titov isə tunc dövründə yaranmasını əsaslandırırlar. Daha sonra Y.V.Bromley tərəfindən irəli sürülmüş «etnososial orqanizm» ideyasında da miqrasiyanın qədim tarixə maliк olması qeyd edilir. Bu baxımdan «etnososial orqanizm» ideyasını təhlil edən N.Y.Merpert qeyd edir кi, neolit və eneolit dövründə miqrasiyanın mövcudluğu heç bir şübhə doğurmur. Laкin onun fiкrincə, ilк etnososial orqanizmlərin struкturu heç də tam məlum deyildir. İlкin neolit dövründə etnososial orqanizmin əsas forması qəbilə, daha sonra isə həmqəbilə və qəbilə birliкləri olmuşdur. Bu nöqteyi-nəzərdən müvafiq dövrdə miqrasiyanın əsas forması кimi etnososial orqanizmin və qəbilə birliкlərinin ayrı-ayrı ərazilərdə yerləşdirilməsi çıxış edirdi. Belə кi, ibtidai icma cəmiyyətinin müvafiq dövründə insanların yerdəyişməsi əsasən nisbətən əlverişli iqlim şəraiti olan münbit torpaqlar və geniş vadilər axtarışı ilə əlaqədar idi. Buna görə də, ilк tayfalar daha çox Asiya, Şimali Afriкa, Mərкəzi və Cənubi Avropa ərazilərində məsкunlaşırdılar. Qan qohumluğu və quldarlıq münasibətlərinin yaranmasından sonra yeni torpaqlar ələ кeçirilməsi, qulların tutulması və кöçürülməsi məqsədilə iqtisadi, məqsədyönlü hərbi eкspedisiyalar həyata кeçirilməyə başladı.

Əhali miqrasiyasının sonraкı artımı erкən feodal dövlətlərinin yaradılması dövründə nəzərə çarpır. Bu, həmçinin varlanmağa və haкimiyyətini möhкəmləndirməyə can atan barbar tayfalarının hərbi aristoкratiyasının yeni torpaqlar ələ кeçirməsi və yerli əhalinin tabe etdirilməsi ilə müəyyən olunurdu. Eramızdan əvvəl V əsrdə sal franкlar Qalliyaya hücum etmiş (indiкi Fransaya); alemanlar Almaniyanın cənub-qərb hissəsini tutmuş; anqlılar, saкslar və yutlar кeltləri sıxışdıraraq Britaniya adalarına кöçmüşlər və s. Avropada boşalmalara səbəb olan dini müharibələr (belə boşalmalar yalnız XIV əsrdə baş vermiş taun epidemiyasının nəticələri ilə müqayisə oluna bilərdi) dövrünün sonunda (6, 175-176) miqrasiya artıq insanların mövsümi işlər və ya müharibə və dini təqiblərdən qaçmaq məqsədilə sporadiк hərəкətindən davamlı və daimi prosesə çevrildi.

Avropalılar tərəfindən Cənubi və Şimali Ameriкada, Avstraliyada, Yeni Zelandiyada, Qərbi Sibirdə, Uzaq Şərqdə təsərrüfat üçün əlverişli olan torpaqların coğrafi кəşflərindən sonra miqrasiya prosesləri nəzərə çarpacaq dərəcədə gücləndi. Belə кi, XVII əsrdə İngiltərə, Fransa, İspaniya, Rusiya və digər Avropa ölкələrindən açıq torpaqlara miqrant axınları yönəldi və bunun nəticəsində кoloniya (müstəmləкə) və yeni məsкənlərin əsası qoyuldu. Avropalılar bu regionlarda əsasən yerli əhaliyə qarşı hərbi əməliyyatlar aparmaqla və ya Qədim və Yeni dünyalar arasında mal dövriyyəsini təmin etməкlə məşğul idilər. Tarixçilərin qeyd etdiyi кimi, Ameriкanın кəşf olunduğu dövrdən sonra üç yüzilliк ərzində bu ərazilərə çox az sayda əhali кöçmüşdü. İşçi qüvvəsinə olan ehtiyac isə afriкalıların hesabına təmin olunurdu. Əgər XVI əsrdə Ameriкaya 900 min afriкalı gətirilmişdisə, artıq XVII əsrdə bunların sayı 3,75 mln., XVIII əsrdə isə 8 mln. nəfər olmuşdu. 1815-ci ildə Avropada ilк dəfə qul ticarətinin ləğv olunmasından sonra Ameriкaya avropalı immi-

qrantlar daha çox köçməyə başladılar.

Avropalıların Şimali Amerikaya ilk irimiqyaslı axını Avropada dini və siyasi təqiblərlə bağlı idi: ilk olaraq 1675-ci ildə kral XIV Lüdovikin 1592-ci il tarixli Nant gdiktini ləğv etdiyi Fransada, sonradan isə yerli əhali ilə ingilis qarşıdurmalarının kəskinləşdiyi Şotlandiya və İrlandiyada (5, 21-23). Lakin artıq XIX əsrin əvvəllərində immiqrantlar daha çox iqtisadi motivlərə üstünlük verirdilər, əmək bazarının inkişaf qanunauyğunluqları isə immiqrasiyanın dinamikasını müharibə və siyasi münaqişələrə əsaslanan problemlərə nisbətən daha düzgün izah edirdi (7, 194). İqtisadçılar və tarixçilər tərəfindən aparılan hesablamalar göstərir ki, XIX əsrin ortalarında Avropa ölkələrinin əksəriyyətində orta əmək haqqının həcmi ABŞ-a immiqrasiya edənlərin ümid etdikləri gəlirlərin 35-55%-ni təşkil edirdi (8, 124-127). Əlbəttə, çoxlarını amerikan cəmiyyətinin azadlıq və bərabərlik ideyalarını iddia edən siyasi prinsipləri də cəlb edirdi. Birləşmiş Ştatların əsasını qoyanların köçkünlərin sayının artırılmasına qarşı çıxmalarına baxmayaraq (məsələn, C.Vaşinqton öz məktublarında yazırdı ki, immiqrantların gəlişinə mane olan heç bir qanunvericilik aktının olmamasına baxmayaraq, mən immiqrantları dəvət etmirəm, mən bütövlükdə və tamamilə buna qarşı çıxıram), Avropadan Amerikaya yeni-yeni miqrant axınları gəlməkdə davam edirdi. Xarakterik haldır ki, onların böyük əksəriyyəti (85%-i) şimal ştatlarında, az hissəsi isə qul ticarətinin çiçəkləndiyi cənub ştatlarında məskunlaşırdılar. XIX əsrin ortalarında ABŞ-a Avropa immiqrasiyası dövrün əsas müəyyənedici əlamətinə çevrilmişdi.

XIX əsrin ikinci yarısı – XX əsrin birinci rübündə Avropadan emiqrasiyanın miqyaslarını kifayət qədər dəqiqliklə müəyyən etmək çətindir. Bu mənada tədqiqatçılar öz hesablamalarına XIX əsrin 40-cı illərinin ortalarından başlayırlar. Belə ki, həmin dövrdən etibarən əksər Avropa dövlətlərində emiqrantların qeydiyyatı müəyyən olunmağa başlamışdır. Müxtəlif məlumatlara əsasən, 1846-cı ildən 1924-cü ilədək Avropanın iri dövlətlərindən – Böyük Britaniya, İtaliya, Avstriya-Macarıstan, Almaniya, Portuqaliya, İspaniya və İsveçdən daha çox gəlir əldə etmək məqsədilə 43 mln. insan emiqrasiya etmişdi ki, bunun da 75%-i Birləşmiş Ştatlara getmişdi. Bu müddətdə İsveçdə demoqrafik itkilər əhalinin 22%-ni, Böyük Britaniyada isə 41%-ni təşkil etmişdi (11, 13). Ümumilikdə, 1846-1939-cu illər ərzində Avropanı 60 mln. insan tərk etmişdi ki, bunların da üçdə ikisi ABŞ-da məskunlaşmışdı (9, 67). Bir sıra mütəxəssislər əhalinin Avropa ölkələrindən fəlakətli dərəcədə axınını Avropanın artıq XX əsrdə iqtisadi cəhətdən Birləşmiş Ştatlardan geri qalması kimi nəzərdən keçirirlər.

ABŞ-da isə immiqrasiya təsərrüfatın intensiv inkişafına səbəb oldu. XIX əsrin ortalarında irland, şotland, fransız, alman, italyan, ispan və hətta skandinav cəmiyyətləri yarandı. Bu cəmiyyətlərdə belə bir fikir mövcud idi ki, Amerika onların mənşə ölkəsi ilə müqayisədə əla görünürdü və buna görə də, belə immiqrantlar amerikan olmaqla, daha tez bir müddətdə vətənpərvərlik hissinə yiyələnmişdilər. Məntiqi olaraq belə bir nəticəyə gəlmək olar ki, yeni vətəndaşların gəlməsi mövcud mədəni şəraiti pozmamalı idi. Lakin 1846-1939-cu illərdə ABŞ-a gəlmiş immiqrantların 84,9-97,5%-nin Avropadan gəlməsinə baxmayaraq, XX əsrin əvvəllərində mövcud tendensiyalar bir çox amerikalılarda təhlükə qorxusu yarada bilməzdi.

Birincisi, immiqrasiyanın miqyasları özü-özlüyündə təhlükəli olmuşdu. Əgər XIX əsrin 20-ci illərində gələnlərin orta illik sayı 14 min nəfər idisə, artıq XIX əsrin 50-ci illərində bu rəqəm 260 minə, 1905-1910-cu illərdə isə 1 mln. nəfərə qədər artdı. 1880-1920-ci illər ərzində ölkə hüdudlarından kənarda doğulan amerikalıların sayı ümumi əhalinin 13,1-14,7%-ni təşkil edirdi. Həmin illərdə birbaşa nəsillər istisna olmaqla, immiqrantlar ABŞ-da əhali artımının 40%-ni təmin edirdilər. 1910-cu ildə Nyu-York, Çikaqo, Klivlend, Boston sakinlərinin 75%-i immiqrantlar və ya onların birinci nəsli idi (10, 118). İkincisi, immiqrantların regional mənsubiyyətində dəyişikliklər baş verdi. Belə ki, əgər 1821-1890-cı illərdə gələnlərin 82%-i Qərbi Avropadan və yalnız 8%-i Mərkəzi, Cənubi və Şərqi Avropadan idisə, artıq 1891-1920-ci illərdə bu nisbət artıq əhəmiyyətli dərəcədə dəyişmişdi – 25% Qərbi Avropadan, 64% Avropanın digər ölkələrindən (12, 199). Bunlardan əlavə, artıq Sakit Okean istiqamətindən Amerikaya Asiya regionundan da immiqrant axını güclənmişdi. Nəticədə immiqrasiya məhdudlaşdırıldı. İlk öncə, Konqres tərəfindən 1882-ci ildə Chinese Exclusion Act Qanunu qəbul edildi ki, bu Qanun da Çin mənşəli immiqrantların ABŞ ərazisinə daimi yaşamaq məqsədilə qanuni gəlməsini qadağan etdi. Daha sonra, 1917-ci ildə qəbul edilmiş «İmmiqrasiya qaydaları haqqında» Qanun bütün Asiya ölkələrindən gələnlərin immiqrasiyasını məhdudlaşdırdı. 1921-ci il Qanunu isə əksər Avropa ölkələrindən immiqrasiyanın kvotalarını müəyyən etdi, 3 il sonra bu kvotalar əhəmiyyətli dərəcədə aşağı salındı və hazırda bu kvotalar qüvvədə qalmaqda davam edir. Məsələn, əgər 1901-1910-cu illər ərzində ABŞ-a 8,8 mln. immiqrant gəlmişdisə, 1931-1940-cı illər ərzində bu rəqəm 528 minə qədər azalmışdı. Bütün bu tədbirlər 70-ci illərə qədər davam edən keyfiyyət baxımından yeni immiqrasiya siyasəti mərhələsinə keçidi müəyyən edirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində kapitalist sənayesinin inkişafı ilə iqtisadiyyat və iqtisadi maraqlar (daha çox gəlir əldə etmək istəyi) miqrasiyanın əsas səbəbinə çevrildi. Miqrasiyanın əsas istiqaməti Şimali və Cənubi Amerika olaraq qalırdı. Miqrasiya axınları həmçinin Avstraliya, Yeni Zelandiya və Cənubi Afrikaya da yönəlmişdi.

Dünyanın digər regionlarında isə XX əsrdə miqrasiya proseslərinə sosial inqilablar, daha çox rus beloqvardiya emiqrasiyasına təkan vermiş 1917-ci il Böyük Oktyabr sosialist inqilabı, eləcə də əhalinin kütləvi yerdəyişmələrinə səbəb olmuş Birinci və İkinci dünya müharibələri əhəmiyyətli təsir göstərmişdir. Bununla belə, miqrasiya əsasən siyasi motivlərlə şərtlənir və məcburi xarakter daşıyırdı.

Məhz Birinci Dünya Müharibəsindən sonra miqrantların qaçqın və köçürülmüş şəxslər kimi kateqoriyaları ortaya çıxdı. Birinci Dünya Müharibəsi dövründə miqrasiya məcburilikdən əlavə zorakı xarakter daşıyırdı: alman işğalçıları işğal olunmuş ölkələrdən Almaniyaya daha ağır işlərdə işlətmək üçün kütləvi insan köçürmələri həyata keçirirdilər. Müxtəlif mənbələrə görə, hər il müharibə şəraitində olan Almaniyada hərbi əsirləri çıxmaq şərtilə, orta hesabla 12-15 milyon əcnəbi qul kimi işləyirdi.

XIX əsrdə bötüvlükdə dünya üzrə 30 mln. insan miqrasiya həyata keçirmişdi. XX əsrin əvvəllərindən Birinci dünya müharibəsinin başlanmasına qədər Avropadan 19 mln. insan emiqrasiya etmişdi, 1914-1918-ci illərdə miqrasiya zəiflədi, daha sonra isə 1918-1939-cu illərdə 9

mln. nəfər emiqrasiya etdi. İkinci dünya müharibəsi yenidən Avropa əhalisinin okeanarxası miqrasiyasını dayandırdı. Müharibədən sonrakı dövrlərdə isə beynəlxalq miqrasiyanın istiqamətləri tez-tez dəyişən iqtisadi şəraitlərə müvafiq olaraq dəyişirdi. 1960-cı ildə dünyada rəsmi olaraq 3,2 mln. qeydiyyatda olan əməkçi-miqrant var idisə, artıq 1995-ci ildə onların sayı 35 mln.-u ötmüşdü, 1990-cı illərin ikinci yarısında isə miqrasiyanın artım tendensiyası güclənməkdə davam etmiş və 2000-ci ilə qədər bu miqrantların sayı 45 mln. nəfərə çatmışdı.

Son illərdə beynəlxalq miqrasiyanın fərqləndirici cəhəti kimi bu prosesdə Şərqi Avropa ölkələrinin, əsasən də keçmiş SSRİ tərkibindən çıxmış ölkələrin fəal iştirakı nəzərə çarpır. Mütəxəssislərin fikrincə, əgər əvvəllər miqrasiya praktiki olaraq qadağan olunduğuna görə Sovet İttifaqı əhalisi, demək olar ki, xarici miqrasiyada iştirak etmirdisə və daxili miqrasiya əsasən əhalinin kənddən şəhərə və ya vahid dövlətin bir respublikasından (əyalətindən) digər respublikasına (əyalətinə) köçməsi formasında həyata keçirilirdisə, 80-ci illərin sonlarından etibarən bu sahədəki vəziyyət kökündən dəyişdi. Sovet İttifaqının süqutundan sonra Rusiya və keçmiş SSRİ respublikaları kütləvi əhali yerdəyişmələri ilə üzləşdilər. Əhali miqrasiyası nəzarətolunmaz hal aldı və postsovet ərazisində əsas kəskin problemlərdən birinə çevrildi.

Böhranlı 90-cı illərdə urbanizasiya, əmək bazarı, əhalinin sayının artımı kimi klassik miqrasiya amillərinin əhəmiyyəti azaldı. Etnik amil ön plana çıxdı. Əhali bölgüsünün əsas istiqamətlərində köhnə metodlar saxlandı, lakin ölkələrin miqrant qəbul edən və miqrant ixrac edən ölkələrə bölünməsinin əsasında etnik müxtəlifliklər qalmaqda davam edirdi.

Əhalinin miqrasiyası müasir mərhələdə kifayət qədər mürəkkəbliyi və hərtərəfliliyi ilə xarakterizə olunur. XX əsrin əvvəlində bəşəriyyət coşqun iqtisadi, məlumat-kommunikasiya, mədəni və etnik qloballaşma proseslərini izləyir. Bu zəmində əhali miqrasiyası praktiki olaraq bütün qitə və ölkələri, bütün sosial təbəqələri əhatə edən qlobal prosesə çevrilmişdir. Ekspertlərin hesablamalarına görə, mənşə ölkələrindən kənarda 147 milyon insan yaşayır. Əmək fəaliyyəti ilə məşğul olan əhalisi arasında 20-30% paya malik əcnəbilər olan ABŞ, Avstraliya və Kanada əvvəllər olduğu kimi, miqrantları cəlb edən əsas mərkəzlərdir. Bəhreyn, Liviya, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt və BƏƏ-də də əhalinin işləyən hissəsinin təxminən bu qədər faizini əcnəbilər təşkil edir. Qərbi Avropa ölkələrində isə əhalinin bütün işləyən hissəsinin 10-20%-i əcnəbilərin payına düşür (4, 95).

Müasir dövrün, xüsusilə də XX əsrin son onilliklərinin miqrasiya prosesləri dünyanın hər yerini əhatə etmiş və kütləvi xarakter almışdır. Müxtəlif səbəblər üzündən öz ölkələrini tərk etmiş miqrantların sayı ilbəil artır: il ərzində miqrasiya edənlərin sayı artıq dünya əhalisinin illik artımını üstələyir (2-4 mln. nəfər). Ümumilikdə isə 125 mln.-a qədər insan mənsub olduğu dövlətin hüdudlarından kənarda yaşayır.

Bu gün əhali miqrasiyası bir sıra xüsusiyyətlərlə xarakterizə olunur: miqrasiyanın miqyasının artması və intensivliyi; miqrantların yaş və ixtisas fərqlərinin artması; immiqrantlar arasında qaçqınların və qeyri-qanuni miqrantların sayının artması; miqrasiyanın coğrafi istiqamətlərinin dəyişilməsi; immiqrasiya axınlarının epizodik xarakterinin daimi amilə çevrilməsi.

Miqrasiya bəzən əhali yerdəyişməsinin bir növü kimi xarakterizə

edilir. Müəyyən sosial birliklər çərçivəsində öz həyat fəaliyyətini həyata keçirən və cəmiyyətin əsas tərkib hissəsi olan insanların məcmusunu özündə əks etdirən xalq məskunlaşması cəmiyyətin hər bir inkişaf mərhələsində yeni keyfiyyət kəsb edir. Buna uyğun olaraq, xalq məskunlaşmasının, eyni zamanda bütövlükdə cəmiyyətin ayrılmaz rəmzi olan miqrasiya prosesləri də ictimai inkişafın hər bir pilləsində keyfiyyət dəyişikliyinə məruz qalır. Yeni texniki imkanlar və istehsal üsulları, kommunikasiya vasitələrinin yaranması, sosial və geosiyasi dəyişikliklərin meydana çıxması ilə əhali miqrasiyasının yeni tendensiyaları ortaya çıxır. Bu tendensiyaların meydana çıxması yerdəyişmələr, əhalinin coğrafi baxımdan yenidən bölgüsü, eləcə də miqrasiya proseslərinin zəifləməsi və ya fəallaşması ilə əlaqədardır.

Belə ki, N.N.Zinçenko qeyd edir ki, müəyyən sosial birliklər çərçivəsində öz həyat fəaliyyətini həyata keçirən və cəmiyyətin əsas tərkib hissəsi olan insanların məcmusunu əks etdirən əhali cəmiyyətin hər bir inkişaf mərhələsində yeni keyfiyyət kəsb edir (2, 12). Buna müvafiq olaraq əhali yerdəyişməsi eyni zamanda bütövlükdə cəmiyyətin ayrılmaz tərkib hissəsi olan miqrasiya prosesləri də ictimai inkişafın hər bir pilləsində keyfiyyət dəyişikliyinə məruz qalır. Yeni texniki imkanlar və istehsal üsulları, kommunikasiya vasitələrinin yaranması, sosial və geosiyasi dəyişikliklərlə əlaqədar olaraq əhali miqrasiyasının yeni tendensiyaları meydana çıxır. Bu tendensiyaların meydana çıxması yerdəyişmələr, əhalinin coğrafi baxımdan yenidən bölgüsü, eləcə də miqrasiya proseslərinin zəifləməsi və ya fəallaşması ilə əlaqədardır. Digər müəlliflər isə qeyd edirlər ki, miqrasiya mahiyyət etibarilə həyat şəraitinin dəyişilməsinə əhalinin kütləvi reaksiya verməsi üsullarından biri kimi xarakterizə olunmalıdır.

Əhali miqrasiyasının elmi əsasları və qanunauyğunluqları ilk dəfə olaraq XIX əsrin sonunda London Universitetində araşdırılmışdır. İngilis tədqiqatçı-alimi E.Rayvenştayn statistik məlumatların kompleks analizi nəticəsində miqrasiyanın intensivliyi və əsas istiqamətləri arasındakı qarşılıqlı asılılığı müəyyən etmişdi. E.Rayvenstaynın fikrincə, miqrasiyanın əsas amili iqtisadi amildir. Miqrasiya prosesi, ilk növbədə, insanların yaxın şəhər məskənlərinə, daha sonra isə inkişaf etmiş sənayeyə və ticarətə malik, tez böyüyən şəhərlərə axınını nəzərdə tutan mərhələli xarakter daşıyır. İki coğrafi məntəqə arasındakı miqrasiya axınının intensivliyi onlar arasındakı məsafəyə tərs mütənasibdir. Hər bir əhəmiyyətli miqrasiya axını onu kompensasiya edən «əks axın» doğurur ki, bu da netto-miqrasiya göstəricilərini azaldır. Əhalinin miqrasiyası texniki tərəqqi və kommunikasiyanın inkişafı ilə güclənməlidir.

E.Rayvenstaynın konsepsiyasında miqrasiya proseslərinin miqrantların iqtisadi maraqları ilə şərtlənməsi əsas yer tutur. Bununla bərabər, əhali miqrasiyanın çoxcəhətliliyini göstərmiş təcrübə və eləcə də, bu fenomenin mürəkkəbliyini təsdiq etmiş müasir şəraiti nəzərə alaraq, miqrasiya prosesini şərtləndirən digər amillərin – siyasi, hərbi, demoqrafik, ekoloji və etnik amillərin də nəzərə alınması zəruridir.

Miqrasiya probleminin müasir dövrdə daha da qloballaşması bu proseslərin beynəlxalq səviyyədə tənzimlənməsi zərurətini meydana çıxarmışdır ki, bu da universal və regional səviyyələrdə yaradılmış bir sıra təşkilatların fəaliyyəti ilə əlaqədardır. Belə ki, əvvəllər Avropadakı miqrantların, qaçqınların və məcburi köçkünlərin müharibədən sonrakı

problemlərinin həlli və nizamlı Trans-Atlantik miqrasiya prosesinə yardım məqsədilə Avropada Miqrasiya Məsələləri üzrə Hökumətlərarası Komitə kimi yaradılmış Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tədricən öz fəaliyyətini genişləndirərək, diqqətini müxtəlif miqrasiya proseslərinə istiqamətləndirmişdir. Mövcud adını 1989-cu ildə qəbul etmiş Təşkilat coğrafi və proqram baxımından daha qlobal problemlərin həlli ilə məşğul olur. Yarandığı vaxtdan etibarən Təşkilat təxminən 13 mln. miqranta 125-dən çox ölkədə məskunlaşmaqda köməklik göstərmişdir. Miqrasiya probleminə artan diqqət BMqT-nin üzvlərinin və müşahidəçilərinin sayının daima artmasına səbəb olmuşdur. Hal-hazırda Təşkilatın 60-dan çox üzvü və 50-dan artıq müşahidəçisi vardır. Mənzil-qərargahı Cenevrə şəhərindədir. BMqT-nin məqsəd və funksiyaları Təşkilatın 1987-ci ildə qəbul edilmiş Nizamnaməsinin (1, 471) preambulasında nəzərdə tutulmuşdur: bütün dünya üzrə miqrasiya axınlarının nizama salınmasının təmin olunması və miqrantların daha əlverişli şərtlər daxilində yerləşdirilməsi və qəbul edən dövlətin sosial və iqtisadi strukturlarına inteqrasiyası məqsədilə beynəlxalq səviyyədə miqrasiya xidmətlərinin göstərilməsi.

Humanitar və nizamlı miqrasiyanın miqrant və cəmiyyətləri bəhrələndirməsi prinsipinin həyata keçirilməsini bir öhdəlik kimi öz üzərinə götürən bu Təşkilat tərəfdaşları ilə birlikdə beynəlxalq miqyasda aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir: miqrasiya problemlərinin həllində dövlətlərə praktiki köməklik göstərmək; miqrasiya vasitəsilə sosial və iqtisadi inkişafa yardım etmək; miqrasiya məsələlərinin başa düşülməsini yaxşılaşdırmaq; miqrantların şərəf və ləyaqətinə və onların rifah halına hörmətlə yanaşılmasına nail olmaq. Təşkilatın orqanları Şura, İcraedici Komitə və İnzibati İdarədir. Qeyd etmək lazımdır ki, BMqT beynəlxalq miqrasiya proseslərinin praktiki tənzimlənməsində fəal iştirak edir. Qəbul edilən immiqrantların qəbul edilmə meyarları və həddi üzərində nəzarətin dövlətlərin daxili yurisdiksiyasına aid olmasını nəzərə alaraq, Təşkilat öz funksiyalarını müvafiq dövlətlərin qanunlarına, qaydalarına və siyasətinə riayət etməklə həyata keçirir (2, 66-70). BMqT-dən əlavə, beynəlxalq miqrasiya proseslərinin beynəlxalq və regional səviyyələrdə tənzimlənməsi məqsədilə bir çox digər təşkilatlar da mühüm fəaliyyət həyata keçirirlər ki, bunlar da növbəti paraqraflarda ətraflı şəkildə araşdırılmışdır.

## ƏDƏBİYYAT


1. Гудвин Гилл Г.С. Статус беженца в международном праве. М.: ЮНИТИ, 645 с.
2. Зинченко Н.Н. Миграция населения: теория и практика международно-правового регулирования. Киев: ІР ПЕА, 2005, 437 с.
3. Иноземцев В.Л. Иммиграция: новая проблема нового столетия // Социологические исследования, 2003, № 4, с. 34-44.
4. Ходов Л.Г. О современном состоянии миграции населения в мире // Внешнеэкономический бюллетень. 1998, № 1, с. 88-89.
5. Butler J. Becoming America: The Revolution before 1776. Cambridge (Ma.), London, Harvard University Press, 2000, 346 p.
6. Merrimann J. A History of Modern Europe from Renaissance to the Present. N.Y., London, W.W.Norton & Co., 1996, 468 p.
7. Haines M.R. The Population of the United States, 1790-1920. The Cambridge Economic History of the United States. Vol. II. The Long Nineteenth Century. Cambridge, Cam-

bridge University Press, 2000, 560 p.
8. O'Rourke K.H., Williamson J.G. Globalization and History. The Evolution of a Nineteenth Century Atlantic Economy. Cambridge (Ma.), London, MIT Press, 1999, 356 p.
9. Rasmussen H.K. No Entry. Immigration Policy in Europe. Copenhagen, Copenhagen Business School Press, 1997, 424 p.
10. Rosendorf N.M. Social and Cultural Globalization: Concepts, History and America's Role. Governance in a Globalizing World. Ed. By Nye J.S. Jr., Donahue J.D. Washington (DC), Brooking Institution Press, 2000, 384 p.
11. Stalker P. Workers Without Frontiers. The Impact of Globalization on International Migration. London, Lynne Reinner Publishers, Boulder (Co.), 2000, 268 p.
12. Haines M.R. The Population of the United States, 1790-1920. The Cambridge Economic History of the United States. Vol. II. The Long Nineteenth Century. Cambridge, Cambridge University Press, 2000, 580 p.

## ОСНОВЫ ПОЯВЛЕНИЯ И ИСТОРИЯ РАЗВИТИЯ МЕЖДУНАРОДНОЙ МИГРАЦИИ

**Дж.А.НИЯЗОВ**

### РЕЗЮМЕ

Несмотря на разные характеры проявления, международная миграция сопутствовала цивилизацию по всей истории как объективная реальность развития цивилизации, порожденная в форме социального феномена. Поэтому можно отметить, что основы появления и история развития международной миграции было проанализировано учитывая разнообразия идей в юридической литературе и мировой практики.

## THE ESTABLISHMENT BASICS AND DEVELOPMENT HISTORY OF INTERNATIONAL MIGRATION

**J.A.NIYAZOV**

### SUMMARY

In spite of different nature of formation, international migration has always been the objective reality of the development of civilization. Considering this fact, the author analyzes the establishment basics and development history of migration basing on the variety of ideas in legal literature and international practice.